# Bol məhsulun əsası qoyulur

Taxıl elin sərvəti, əvəzsiz nemətidir. Eyni zamanda taxıl kəndlinin gəlir mənbəyidir. Odur ki, kəndlinin taxılçılığa marağı ilbəil artır. Bu həm də dövlətimizin taxılçılığın inkişafına artan köməyinin, real dəstəyinin nəticəsidir ki, taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərində, fermerlərdə bu gəlirli sahəyə böyük maraq yaratmışdır. Ölkə başçısı cənab ilham Əliyevin son 10 ildə yürütdüyü aqrar siyasət bütövlükdə aqrar sahədə böyük canlanma yaratmışdır. Bunu dağ rayonu olan Qəbələnin timsalında aydın görmək olar. Son illər taxılçılıq sahəsində rayonun tarixində ən yüksək nəticələr qazanılmışdır. Belə ki, bu ilin taxıl yığımı mövsümündə 25.958 hektar sahədən rekord səviyyədə 65.400 ton taxıl götürülmüşdür. Taxıl əkib becərən torpaq mülkiyyətçilərindən "Gilan" MMC, "Həsrət" fermer təsərrüfatları və Bayramkoxalı, Kürd, Hacıalılı kəndlərinin və Nic qəsəbəsinin əkinçiləri işə sahibkarlığın məsuliyyət hissi ilə yanaşmaları nəticəsində tarlalardan nəzərdə tutulduğundan bol arpa və buğda toplamışlar.



Dövlət siyasətinə uyğun olaraq rayonumuzda 5 özəl toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Qeyd olunmalıdır ki, əvvəllər başqa yerlərdən sortu, mənşəyi məlum olmayan toxumlar gətirilirdisə, indi rayonun toxumçuluqla məşğul olan fermerləri özlərini toxumla təmun etməklə yanaşı, taxılçılıqla məşğul olan digər təsərrüfatlara da keyfiyyətli toxum satırlar. Bundan başqa respublikanın zona toxumçuluq təsərrüfatlarından rayona daha 40 ton məhsuldar elit toxumlar gətirilmişdir.

Hazırda Qəbələdə payızlıq taxıl əkini başa çatmaq üzrədir. Şum traktorları, səpin aqreqatları və digər texnika sahələrdə bir an belə dayanmır. Hamı çalışır ki, əlverişli hava şəraitindən istifadə edərək səpini optimal müddətdə başa çatdırsın.

Bu payız rayon üzrə 25 min hektarda taxıl əkini proqnozlaşdırılıb. Noyabr ayının sonlarına olan məlumata görə 22 min hektardan çox sahəyə arpa və buğda toxumu səpilmişdir. Mühüm kampaniyanın aparılmasında "Aqrolizinq"in rayondakı filialının işçiləri də var qüvvə ilə çalışırlar, onlar istəyirlər ki, işin sürəti də, keyfiyyəti də torpaq mülkiyyətçilərinin üryincə olsun, əkin kampaniyası vaxtında başa çatsın.

Rayon icra hakimiyyəti və mütəxəssislər hər gün əkinin gedişini diqqət mərkəzində saxlayırlar, yaranan hər hansı çətinliyin, problemin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görürlər. Qəsəbə və kəndlərin inzibati ərazi nümayəndələri, yerli bələdiyyələr də bu mühüm kampaniyada yaxından iştirak edirlər. Ümumiyyətlə, bu ilin payızında gələn ilin məhsulu üçün 25 min hektar sahədə arpa və buğda əkini aparılacaqdır. Çalışırıq ki, payızlıq taxıl əkinini dekabr ayının birinci ongünlüyündə başa çatdıraq. Buna geniş imkanımız, əlverişli şəraitimiz var.

**Elmdar ŞƏRİFOV,**
**rayon icra hakimiyyətinin aqrar şöbəsinin baş aqronomu.**

# Qəbələ energetikləri qışa hazırdır

Havaların soyuması qışın gəlişindən soraq verir. Qış isə həmişə sınaq fəsli sayılıb. Odur ki, qışın şaxtalı-qarlı günlərinin sınağından zərərsiz ötüşmək xidmət təşkilatlarından çox asılıdır. Onlar qışın gətirə biləcəyi problemləri aradan qaldırmaq üçün ciddi hazırlıq görməli, kəm-kəsirli işlərini vaxtında aradan qaldırmalıdırlar.

Rayonumuzun xidmət təşkilatları qışa ciddi hazırlaşmış, onun yarada biləcəyi fəsadları vaxtında həll etmişlər. Qəbələ Elektrik Şəbəkəsinin əməkdaşları tərəfindən nəzərdə tutulmuş tədbirlər planındakı işlər demək olar ki, əsasən yerinə yetirilib. Belə ki, şəbəkənin əməkdaşları ilk növbədə elektrik enerjisinin verilməsində mühüm rol oynayan transformatorların normal işləməsinə daha çox diqqət yetirmişlər. Onlar şəbəkənin istismarında olan 777 ədəd transformatorlara hələ yay-payız aylarında baxış keçirmiş, aşkar edilən nasazlıqlar aradan qaldırılmışdır. Bu ilin 10 ayı ərzində 41 transformator cari və ya əsaslı təmir olunmuşdur. Bundan əlavə Vəndam qəsəbə əhalisinə elektrik enerjisinin verilişini yaxşılaşdırmaq məqsədilə 1 ədəd əlavə transformator quraşdırılmışdır.

Sayğac quraşdırılması da davam etdirilir. Hazırda rayon üzrə əhali 23.500 sayğacdan səmərəli istifadə edir. Təkcə bu ilin 10 ayı ərzində 469 sayğac quraşdırılmış, 258 qüsurlu sayğac yenisi ilə əvəz edilmişdir. Həmçinin bu il 75 ədəd 10 kilovoltluq beton dirək basdırılmışdır. Bütövlükdə, bu il şəbəkə üzrə 10/6 kv-luq hava xətinin 8,28. km məsafəsi əsaslı, 21,6 km. məsafəsi cari təmir edilmiş, ümumi dəyəri 18255,65 manat olan işlər görülmüşdür. Bu sahədə də keçən illə müqayisədə xeyli artıma nail olunmuşdur.

İstehlak edilmiş enerji haqlarının yığılmasında da ciddi irəliləyiş var. Əvvəlki ilin eyni dövrünə nisbətən xeyli artım təmin edilmişdir. Ötən dövrdə bir neçə yaşayış məntəqəsinə 480 metr məsafədə yeni SİP markalı kabellər çəkilib. Şəhərin H. Aslanov, M. F. Axundov küçələrinin abadlaşdırılması ilə əlaqədar yol kənarında yerləşən 0,4 kv-luq hava xətti və 2,67 km. məsafədə Nohurqışlaq kəndində, 0,36 km. Həmzəlli kəndi ərazisində yolun abadlaşdırılması məqsədilə yol kənarında yerləşən elektrik xətləri yenidən qurulmuşdur. Bundan əlavə Solqıca kəndinə əvvəllər meşə zolağından çəkilmiş 4,8 km. hava xətti meşə zolağından çıxarılaraq yol kənarı ilə yenidən qurulmuşdur. Ötən dövr ərzində Əmili, Zalam, Hacallı, Zarağan, Tüntül, Dızaxlı kəndlərində və Bum qəsəbəsində hava xətləri cari təmir olunmuş, Laza, Bayramkoxalı, Qaradeyn kəndlərinin hava xətlərinin bir qismi əsaslı təmir edilmişdir.

Göründüyü kimi, qışın gətirəcəyi çətinlikləri aradan qaldırmaq üçün Qəbələ Elektrik Şəbəkəsinin əməkdaşları rayonda mühüm işlər görüb, aşkar olunan nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tədbirlər həyata keçirirlər.

**Aslan CƏLİLOV.**

# Qrip epidemiyasından özünüzü qoruyun

Qrip geniş yayılmış kəskin virus mənşəli yoluxucu xəstəliklərdəndir. Xəstəlik adətən payız-qış mövsümündə aktivləşir və epidemiya şəklində yayılmağa meyillidir. Xəstəliyi adi mikroskopla görünə bilməyən süzülən viruslar törədir. Xəstəliyin bir çox ştamları məlumdur. Lakin ən çox aktiv olan və daha çox rast gələnən A, B, S, D, A2 kimi ştamlarıdır.

Qrip törədiciləri ilk dəfə 1933-cü ildə araşdırılıb. Bu viruslar soyuq hava şəraitində öz aktivliyini bir neçə ay saxlamaq qabiliyyətinə malikdir.

Xəstəliyin əhali arasında yayılmasına səbəb qrip viruslarını orqanizmində gəzdirən xəstə şəxslərdir. Qripli xəstə öskürdükdə, asqırdıqda virusları damcı vasitəsilə ətrafa ötürür, sağlam şəxslər üçün təhlükə yaradır. Viruslarla çirklənmiş hava şəraitində nəfəs alan şəxslər tənəffüs yolu vasitəsilə qrip xəstəliyinə yoluxurlar. Xəstə şəxslərin istifadə etdikləri qab-qacaq və əşyalar da yoluxma vasitəsi ola bilər.

Əhalinin sıx olduğu şəraitdə xəstəlik daha çox yayılır. Qış fəslində və yazın ilk aylarında xəstəlik daha geniş müşahidə edilir.

Qripə yoluxmada yaş xüsusiyyətinin əhəmiyyəti də böyükdür. 6 aylığa qədər körpələr qripə təsadüfi halda tutulurlar. 1,5—3 yaş arasında uşaqlar qripə həssas olurlar. Məktəblilər və sıx iş şəraitində çalışanlarda da xəstəliyə həssaslıq böyükdür.

Xəstəliyin gizli dövrü 12—48 saatdır. İlkin əlamətləri bədəndə əzginlik, baş ağrısı, bütün oynaqlarda narahatlıqdır. Xəstənin hərarəti 3—4 gün, bəzən həftədən artıq davam edə bilər. Bu müddətin uzanması xəstəliyin ağırlaşmasının əlamətidir.

Xəstəliyin bronxit, pnevmaniya, sinusitlər, meningit, meninqoensefalit kimi ağırlaşmaları müşahidə oluna bilər. Belə ağırlaşmalar adətən pis qidalanması, immun sistemi zəif olan adamlarda rast gəlinir. Qrip əsasən yaşlı adamlarda ağır fəsadlar verir, digər təhlükəli vəziyyət isə körpələrdə yarana bilər.

Xəstələrin ilk növbədə həkimə müraciət etməsi zəruridir. Yoluxma vaxtı çox maye qəbul olunmalıdır, zoğal və ya moruq mürəbbəsi ilə çay içmək, limon, bal, isti süddən istifadə etmək faydalıdır. Hərarətin 38—38,5-dən aşağı olan hallarında onu salmağa çalışmaq lazım deyil. Çünki bu hərarətdə orqanizmdə interfegeron hasil olmağa başlayır və viruslara qarşı orqanizmin müdafiə faktorları güclənir, virusların artımının qarşısı alınır. Xəstələrin aktivliyinin azalması da orqanizmin enerjisinə qənaət etmə faktorlarına aiddir. Xəstələrin yüksək hərarəti olan vaxtlarında yataq rejimində olmaları məsləhətdir. Dərman müalicəsi isə ancaq həkimin təyinatı ilə və ağırlaşma vaxtı qəbul olunmalıdır. Yüngül və orta ağır xəstələrə dərman müalicəsi aparılmalıdır.

Hər kəsə tövsiyyə edirik ki, sağlam həyat tərzi keçirsinlər: İdmanla məşğul olsunlar, alkoqol və siqaretdən uzaq olsunlar, bol meyvə-tərəvəzdən istifadə etsinlər, təmiz havada gəzintidən faydalansınlar.

Belə olan halda payız-qış mövsümünü sağlıqla yaşaya bilərik.

Sağlamlığımız öz əlimizdədir!

**Saleh ASLANOV,**
**Qəbələ rayonunun baş pediatrı.**